# AZƏRBAYCANIN İQTISADİ İNKİŞAF MODELİNİN STRATEJİ PRİORİTETLƏRİ

*Məmmədov Saqib Yaşar oğlu, müəllim*
*Mingəçevir Dövlət Universiteti*
*Gəncə Dövlət Universitetinin dissertantı*
*Saqib_92@mail.ru*
*Elmi rəhbər: Veysəl Seyfəl oğlu Əyyubov*
*İqtisad elmləri doktoru, professor*
*Mingəçevir Dövlət Universiteti*

Azərbaycan Respubliasında milli iqtisadiyyarın formalaşması və inkişaf modeli bir çox xüsusiyyətlərinə görə digərlərinə nəinki bənzəmir, həmçinin özünəməxsus üstünlükləri ilə seçilir. Adı çəkilən modelin ən üstün tərəflərindən biri də onun sərbəst inkişaf etmək imkanında respublikamızda daxili investisiyalar və xarici sərmayə qoyuluşları inkişafa rəvac verir, qlobal miqyasda layihələr dövlət büdcəsi hesabına reallaşdırılır. Zəngin təbii resurslara malik olmaq etibarilə Azərbaycan iqtisadiyyatının sərbəst şəkildə inkişaf etmək imkanları təmin edilir. Ölkəmizin təbii sərvətlərinin zənginliyi və müxtəlifliyi, respublikamızın olduqca əlverişli coğrafi mövqeyi, əhalinin müsbət demoqrafik inkişaf və təbii artımı, məşğulluq siyasəti sahəsində səmərəli siyasət iqtisadiyyatın hərtərəfli və davamlı inkişafını zəruri edir. Məsələn, hazırda Azərbaycan Respublikasında istehsal olunan məhsullar daxili istehlakın tələbini ödəməyə xidmət edir. Bu isə qlobal maliyyə böhranlarının fəsadlarının mənfi nəticələrinin ölkə iqtisadiyyatına təsirini minimum səviyyəyə endirir. Həyata keçirilən uğurlu sosial-iqtisadi və siyasi tədbirlər, milli və multikultural əsasa söykənən dəyərlər qarşıdakı illərdə Şərqlə Qərbin qovşağı olan Azərbaycan Respublikasının iqtisadi qüdrətinin daha da artacağına əminlik yaradır. Mövcud və potensial imkanlar 2030-cu ilə qədər olan mərhələdə Azərbaycanın iqtisadi gücünün möhkəmləndirilməsinə və müasir dövrün həyat standartlarına cavab verən və əsaslanan yüksək rifah cəmiyyətinə malik qüdrətli və inkişaf etmiş ölkəyə çevrilməsinə zəmanət verir. [1]

Azərbaycanın qlobal maliyyə böhrandan maksimum şəkildə minimum itki ilə çıxan ölkələr sırasında olması həm də onun müstəqil iqtisadi və sosial siyasət yeritməsi ilə əlaqədardır. Azərbaycan Respublikasının maliyyə təhlükəsizliyinin təmin edilməsi baxımından beynəlxalq fond birjalarında, dünya qiymətli kağızlar bazarında iştirakda haqlı olaraq ehtiyatlı formada yanaşması maliyyə böhranının ölkə iqtisadiyyatına təsirini azaldan əsas amillər sırasındadır. Azərbaycanın qlobal maliyyə institutlarına öz kapitalı, fond aktivləri və qiymətli kağızları ilə fəal inteqrasiyasında gözləntiləri nəzərə alması da ölkəni qlobal maliyyə böhrandan qoruyan haldır. Ölkə başçısı İlham Əliyev Azərbaycan Respublikasının qlobal maliyyə böhranından az zərər

çəkməsinin səbəblərinə toxunarkən, haqlı olaraq ölkəmizin milli maraqlara söykənən iqtisadi siyasət həyata keçirdiyini xüsusi önə çəkmişdir: "Bəzi hallarda Azərbaycanda maliyyə sektorundakı müəyyən konservativ meyillər beynəlxalq maliyyə qurumları tərəfindən tənqid edilirdi. Bəzən bizə tövsiyə olunurdu ki, inteqrasiya meyillərinə daha da sürətlə qoşulaq, beynəlxalq ticarət qurumlarına inteqrasiya edək. Ancaq bizim mövqeyimiz bütün zamanlarda çox ehtiyatlı idi. Çünki Azərbaycan iqtisadiyyatı özünü təmin edən iqtisadiyyatdır.".

Respublikamızda milli iqtisadiyyatın inkişaf modelinə xas ən mühüm cəhətlərdən biri müasir dövrün tələblərinə uyğun infrastrukturun formalaşdırılması yolu ilə insan resurslarının inkişafıdır. Həyata keçirilən bu siyasət yalnız sosial yönümlü amillərlə bağlı olmayıb, həm də neft-qaz gəlirlərindən səmərəli şəkildə istifadə olunması strategiyasına əsaslanır. Başqa sözlə, hökumət iqtisadiyyatın birqütblü istiqamətdə inkişafına – "Holland sindorumu"na yol verməmək üçün neft satışından əldə olunan gəlirləri iqtisadiyyatın digər sahələrinin inkişaf etdirilməsinə, ilk növbədə, davamlı inkişafa şərait yaradan infrastruktur imkanlarının gerçəkləşdirilməsinə yönəldir.

Bazar iqtisadiyyatı ilə inkişaf yolunu seçmiş hər bir dövlətin müstəqil və suveren yaşaması və inkişaf etdirilməsi prosesində iqtisadi artımın və sabitliyin təminatçısı sayılan sahibkarların, xüsusi kiçik və orta sahibkarlığın müstəsna rolunu nəzərə alan Ümummilli Lider Heydər Əliyev milli iqtisadi inkişaf modelinin həyata keçirilməsində özəl sektorun iştirak etməsini vacib saymışdır. 1997-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı (1997-2000-ci illər) Dövlət Proqramı" öz miqyasına və əhəmiyyətliliyinə görə milli sahibkarlığın inkişafı istiqamətində yeni mərhələnin başlanğıc nöqtəsi olmuş, bu sahədə dövlət siyasətinin əsas prinsiplərini müəyyənləşdirmişdir.

Ümummilli Lider Heydər Əliyevin 10 sentyabr 2002-ci il tarixli "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət qayğısı haqqında" və 28 sentyabr 2002-ci il tarixli "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında" fərmanlarında isə müəyyən dövlət qurumları ilə sahibkarlıq subyektləri arasında həllini gözləyən bəzi problemlər təhlil edilmiş, qarşıda duran məsələlərin qarşısının alınması və həll edilməsi üçün kompleks islahatlar aparılmışdır. Aparılan islahatların nəticəsi kimi 1996-2003-cü illərdə Azərbaycan Respublikasında bütün həyati əhəmiyyət kəsb edən sahələrində dinamik inkişaf və artım təmin edilmiş, Ümümi Daxili Məhsulda özəl sektorun xüsusi çəkisi 75 faizə yüksəlmişdir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin imzaladığı bir sıra dövlət proqramları qeyri-neft sektorunun inkişafının təmin edilməsini, ölkə iqtisadiyyatın neft və qaz sektorundan asılılığının azaldılmasını, infrastrukturun yeniləşdirilməsini təmin edən kompleks normativ-hüquqi aktlar olmaqla yanaşı, bölgələrdə özəl sektorun və sahibkarlığın inkişafına

təkan vermişdir. 2004-2008, 2009-2013, 2014-2018, 2019-2023-cü illəri əhatə edən və regionaların inkişafını hədəfləyən dövlət proqramları vacib əhəmiyyət kəsb etməklə, regionların simasının dəyişməsi və intibah mərhələsinin əsasını qoymuş, regionlarda sənaye və xidmət sahəsinin yüksəlişinə zəmin yaratmışdır. Azərbaycan Respublikasında qeyri-neft sektorunun davamlı və rəqabətqabiliyyətli inkişafı dövlətin iqtisadi siyasətinin prioritet istiqamətidir. [2]

Azərbaycan Prezidenti İlham Əliyevin reallaşdırdığı uğurlu antiböhran strategiyası respublikamızın yaranmış yeni iqtisadi və siyasi şəraitə uyğun olaraq təbii resurslardan asılı olmayan, ixrac istiqamətli, davamlı inkişafına etibarlı zəmin formalaşdırır. 2014-cü ilin ortalarından etibarən dünya iqtisadiyyatını cənginə alan qlobal miqyaslı böhran dalğası qarşıya qoyulmuş məqsəd və vəzifələrin yerinə yetirilməsində Azərbaycan iqtisadiyyatının sabitliyinə kəskin təsir etməmişdir. Qlobal böhranın ən ciddi mərhələsi hesab olunan 2015-2016-cı illərdə respublikamızın iqtisadiyyatı üçün müəyyən çətinliklər yaransa da, hökumətin həyata keçirdiyi tədbirlər nəticəsini vermiş, bir çox makroiqtisadi göstəricilər üzrə inkişafa nail olunmuşdur.

Həyata keçirilmiş həm təşkilati-hüquqi həm də qanunverici və institusional islahatların əsasını sahibkarlar sinfinin dəstəklənməsi yolu ilə qeyri-neft bölməsinin inkişafı və idxal-ixrac əməliyyatlarında müsbət balansın təmin edilməsi, ümumən makroiqtisadi davamlılığın qorunması təşkil etmişdir. Bu məqsədlə son illərdə sahibkarlıq fəaliyyətində lisenziya və icazələrin sayının və ödənilən rüsumların məbləğlərinin böyük miqyasda azaldılması; icazələrin verilməsi prosesinin sadələşdirilməsi, o cümlədən bu sahədə elektron portalın istifadəyə verilməsi; sahibkarların hüquqları sahəsində apellyasiya şuralarının yaradılması; ölkə ərazisindən tranzit yüklərin daşınması zamanı "bir pəncərə" prinsipinin tətbiqi; investisiyaların təşviq edilməsi məqsədilə 7 il müddətində vergi və gömrük güzəştlərinin tətbiqi; idxal-ixrac əməliyyatları zamanı gömrük rəsmiləşdirilmələrinin sadələşdirilməsi məqsədilə elektron gömrük xidmətlərinin daha da genişləndirilməsi; dövlət satınalmalarının təkmilləşdirməsi tədbirlərinin aparılması, dövlət orqanlarında sahibkarların müraciətlərinin birbaşa cavablandırılmasını təmin edən məlumatlandırma və məsləhət xidmətləri göstərən çağrı mərkəzlərinin yaradılması reallaşdırılmışdır.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədi şəffaflığa xidmət edən tədbirlərin davam etdirilməsini vacib məsələ kimi müəyyən etmişdir [3].

**Ədəbiyyat.**

1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
2. "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasi Prezidentinin Fərmanı. Bakı, 2016
3. Babayev Ə. İnkişafın Azərbaycan modeli. "Xalq qəzeti, 2021, 21 oktyabr